RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 193 (9938) 11 sentyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan beynəlxalq tədbirlərin nüfuzlu ünvanıdır



## Prezident İlham ƏLİYEV: "Müasir dünyada beyin mərkəzlərinin dövlətlərin və cəmiyyətlərin inkişafında rolu olduqca böyükdür"

Dünya Azərbaycanı həm də beynəlxalq tədbirlərin keçirildiyi mərkəz kimi tanıyır. Beynəlxalq tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli və uğurlu platformalarını yaradan Azərbaycan çox mühüm forumlara, konfranslara evsahibliyi edir, irəli sürdüyü təşəbbüslər qlobal miqyasda hər zaman dəstəklənir. Məsələn, Qlobal Bakı Forumu maraqlı və səmərəli diskussiyalarla, təşəbbüslərlə, yeni yanaşmaların meydana çıxması ilə yadda qalıb. Azərbaycanın təşəbbüsü ilə yaranan "Bakı Prosesi" qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir.

2025-ci il də respublikamızda çoxsaylı beynəlxalq tədbirlərin keçirilməsi ilə əlamətdardır. Belə ki, mart ayında Azərbaycan XII Qlobal Bakı Forumuna evsahibliyi edib. Bu ilin iyul ayında isə Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə görüşü keçirilib. Azərbaycan həm də beynəlxalq idman tədbirlərinin keçirildiyi bir ünvandır. 2025-ci il də bu baxımdan əlamətdardır. Bu il sentyabrın 19-21-də Bakıda növbəti dəfə "Formula-1" Azərbaycan Qran-prisi keçiriləcək. Sentyabrın 28-dən oktyabrın 8-dək respublikamız III MDB Oyunlarına evsahibliyi edəcək. İndiyədək respublikamızda keçirilmiş digər kütləvi idman tədbirlərindən fərqli olaraq III MDB Oyunları paytaxtdan kənarda keçiriləcək.

Əsas məsələlərdən biri də odur ki, Azərbaycan mövzusundan və formatından asılı olmayaraq bütün beynəlxalq tədbirləri həmişə ən yüksək səviyyədə təşkil edib.

Bu günlər respublikamız daha bir siyasi tədbirə "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasına evsahibliyi etdi.

6

# Azərbaycan beynəlxalq tədbirlərin nüfuzlu ünvanıdır

## **Prezident İlham ƏLİYEV:** "Müasir dünyada beyin mərkəzlərinin dövlətlərin və cəmiyyətlərin inkişafında rolu olduqca böyükdür"



**Azərbaycanı dünyaya yaxından tanıdan amillər müxtəlifdir. Bu sırada torpaqlarımızın işğaldan azad edilməsi son illərdə ölkəmizi dünyaya daha yaxından təqdim edən faktor kimi özünü göstərir. Eyni zamanda dünya Azərbaycanı regionun lideri, beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi coğrafi məkan, qlobal problemlərin həllinə fəal töhfələr verən dövlət kimi tanıyır.**

Dünya Azərbaycanı həm də beynəlxalq tədbirlərin keçirildiyi mərkəz kimi tanıyır. Beynəlxalq tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli və uğurlu platformalarını yaradan Azərbaycan çox mühüm forumlara, konfranslara evsahibliyi edir, irəli sürdüyü təşəbbüslər qlobal miqyasda hər zaman dəstəklənir. Məsələn, Qlobal Bakı Forumu maraqlı və səmərəli diskussiyalarla, təşəbbüslərlə, yeni yanaşmaların meydana çıxması ilə yadda qalıb. Azərbaycanın təşəbbüsü ilə yaranan "Bakı Prosesi" qlobal hərəkata çevrilib və BMT tərəfindən dəstəklənir.

2025-ci il də respublikamızda çoxsaylı beynəlxalq tədbirlərin keçirilməsi ilə əlamətdardır. Belə ki, mart ayında Azərbaycan XII Qlobal Bakı Forumuna evsahibliyi edib. Bu ilin iyul ayında isə Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin başçılarının Zirvə görüşü keçirilib.

Azərbaycan həm də beynəlxalq idman tədbirlərinin keçirildiyi bir ünvandır. 2025-ci il də bu baxımdan əlamətdardır. Bu il sentyabrın 19-21-də Bakıda növbəti dəfə "Formula-1" Azərbaycan Qran-prisi keçiriləcək. Sentyabrın 28-dən oktyabrın 8-dək respublikamız III MDB Oyunlarına evsahibliyi edəcək. İndiyədək respublikamızda keçirilmiş digər kütləvi idman tədbirlərindən fərqli olaraq III MDB Oyunları paytaxtdan kənarda keçiriləcək.

Əsas məsələlərdən biri də odur ki, Azərbaycan mövzusundan və formatından asılı olmayaraq bütün beynəlxalq tədbirləri həmişə ən yüksək səviyyədə təşkil edib.

Bu günlər respublikamız daha bir siyasi tədbirə "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasına evsahibliyi etdi.

### Azərbaycan AQEM platformasının fəal iştirakçısıdır

Öncə onu qeyd edək ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) Asiya regionu ölkələri arasında əlaqələrin genişləndirilməsində, qarşılıqlı etimadın möhkəmləndirilməsində və əməkdaşlığın inkişaf etdirilməsində önəmli və konstruktiv rol oynayır. Azərbaycan da AQEM prosesini dəstəkləyir və onun fəal iştirakçısıdır.

AQEM-in çağırılması haqqında təşəbbüs ilk dəfə 5 oktyabr 1992-ci ildə Qazaxıstan tərəfindən BMT Baş Assambleyasının 47-ci sessiyası zamanı irəli sürülüb. Bu təşəbbüsün irəli sürülməsində əsas məqsəd Asiyada sülh və təhlükəsizliyin təmin olunması üzrə effektiv və universal təşkilat təsis etmək olub.

Hazırda 28 üzvü olan AQEM-in fəaliyyətini tənzimləyən əsas sənədlər 1999-cu ildə qəbul edilmiş "AQEM üzv dövlətləri arasında münasibətlərin rəhbər prinsipləri haqqında Bəyannamə" və 2002-ci ildə qəbul edilmiş "Almatı Aktı"dır. Müşavirənin inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir. AQEM-in əsas qərar qəbul etmə orqanları Dövlət və Hökumət Başçılarının Şurası - Sammit (prosedur qaydalarına uyğun olaraq dörd ildən bir toplanır), Xarici İşlər Nazirləri Şurası (dörd ildən bir toplanır) və Yüksək Vəzifəli Şəxslər Komitəsidir (azı ildə iki dəfə toplanır).

AQEM-in çağırılması ilə bağlı təşəbbüsü dəstəkləyən ilk dövlətlərdən biri Azərbaycandır və hazırda da respublikamız AQEM çərçivəsində əməkdaşlıqda fəal iştirak edir. Ölkəmiz "Təhlükəsiz və səmərəli nəqliyyat dəhlizləri sistemlərinin inkişaf etdirilməsi" sahəsində etimad-qurucu tədbirin əlaqələndiricisi funksiyalarını yerinə yetirməkdədir. Bu xüsusda Azərbaycan tərəfi 20-21 aprel 2011-ci il tarixlərində Bakıda sözügedən etimad-quruculuğu sahəsində ekspertlərin görüşünə evsahibliyi edib. 23 sentyabr 2021-ci il tarixində isə "Nəqliyyat və logistika əməliyyatlarında rəqəmsallaşmanın gücləndirilməsi istiqamətində əməkdaşlığın təşviqi" mövzusunda ekspertlərin növbəti görüşü virtual formatda Azərbaycan tərəfindən təşkil edilib. Bundan başqa 2018-ci ilin 13-14 aprel tarixlərində Bakıda "Sülh, təhlükəsizlik və davamlılıq kontekstində beynəlxalq gənclər əməkdaşlığı" mövzusunda AQEM-in Gənclər Şurasının üçüncü konfransı da təşkil edilib.

### Azərbaycanın prioritetlərindən biri AQEM-in təşkilati baxımdan gücləndirilməsidir

AQEM Nazirlər Şurasının 19 mart 2024-cü il tarixli qərarı ilə 2024-2026-cı illər üzrə müşavirəyə sədrlik ölkəmizə keçib. AQEM-ə sədrlik çərçivəsində, AQEM-in Biznes Şurasına və Gənclər Şurasına sədrliyin də həmin dövr üçün Azərbaycan tərəfindən həyata keçirilməsi nəzərdə tutulub.

AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciətində AQEM-in regionda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli bir təsisat olduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycanın 2024-2026-cı illər üzrə sədrliyinə böyük məsuliyyətlə yanaşdığını bildirib: "Sədrliyimizin fəaliyyəti "Daha güclü AQEM, Asiyada bağlantılar, rəqəmsallaşma və dayanıqlı artım" mövzusu üzərində qurulur. Biz sədrliyimiz dövründə AQEM-in təşkilati baxımdan gücləndirilməsi, onun beynəlxalq təşkilat kimi təsisatlanması, yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və təsisatın beynəlxalq münasibətlər sistemində öz yerini möhkəmləndirməsini prioritet olaraq müəyyənləşdirmişik. Eyni zamanda AQEM çərçivəsində Maliyyə Sammitinin keçirilməsini, Qadınlar Şurasının, Dayanıqlı Bağlantılar Şurasının, AQEM İqlim Şurasının yaradılmasını hədəf götürmüşük".

Qeyd edək ki, Prezident İlham Əliyevin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciəti bu tədbirin əhəmiyyətini və ona olan beynəlxalq marağı daha da artırdı.

Respublikamız sədrliyi dövründə AQEM-in daha da möhkəmləndirilməsinə, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə praktiki əməkdaşlığın genişləndirilməsinə və Asiyada təhlükəsizlik, əməkdaşlıq və inkişaf məsələləri üzrə digər beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyətin gücləndirilməsinə üstünlük verir. Bakıda keçirilən AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyası da bu baxımdan böyük əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin müraciətində qeyd olunduğu kimi, ilk dəfə olaraq Çindən kənarda keçirilən bu forumun məhz Azərbaycanda baş tutması məmnunluq doğurur.

Forumun açılış mərasimində Çinin Xarici İşlər Nazirliyinin Avropa-Mərkəzi Asiya İşləri Departamentinin səfiri Yan Venbin bildirib ki, AQEM-ə sədrlik edən Azərbaycan qarşılıqlı fəaliyyət, rəqəmsallaşma və davamlı artım mövzusu çərçivəsində bir sıra mühüm əməkdaşlıq təklifləri irəli sürüb. Əlbəttə, Azərbaycanın təklifləri və təşəbbüsləri Asiyada mövcud yeganə qarşılıqlı fəaliyyət platforması olan AQEM-in əhatə etdiyi regionun tranzit və nəqliyyat potensialının reallaşmasına, beynəlxalq dialoqun təşviqinə, qlobal çağırışların dəstəklənməsinə mühüm töhfə verir.

Ümumiyyətlə Azərbaycan çoxtərəfli diplomatiya üzrə zəngin təcrübəsindən vasitə kimi istifadə edərək, üzv dövlətlər arasında əməkdaşlığın və dialoqun möhkəmləndirilməsində əhəmiyyətli irəliləyişə nail olmağa çalışır. Bu da son nəticədə AQEM-in daha da möhkəmlənməsinə xidmət edəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*